Qətnamə A.1070(28)

4 dekabr 2013-cü il tarixində qəbul edilmişdir.

Beynəlxalq Dəniz Təşkilatının Məcburi Alətlərinin İcrası haqqında Məcəllə (III Məcəllə)

Assambleya,

Beynəlxalq Dəniz Təşkilatı haqqında Konvensiyanın dəniz təhlükəsizliyi və gəmilərdən dəniz mühitinin çirkləndirilməsinin qarşısının alınması və ona nəzarət edilməsi ilə bağlı qaydalar və təlimatlara dair Assambleyanın funksiyalarına aid 15(j) maddəsini XATIRLADARAQ;

HƏMÇİNİN XATIRLADARAQ Kİ**,** A.1018(26) saylı qətnamə vasitəsilə təsisatlanmış Beynəlxalq Dəniz Təşkilatına üzv dövlətlərin Audit Mexanizminin nəzərdən keçirilməsi və tətbiqi üzrə tədbirlər cədvəlini və fəaliyyət planını təsdiq etmişdir;

HƏMÇİNİN XATIRLADARAQ Kİ, A.1054(27) saylı qətnamə ilə Beynəlxalq Dəniz Təşkilatının məcburi alətlərinin tətbiqi və icrası üçün rəhbər prinsipləri müəyyən edən və xüsusilə audit olunan sahələrin müəyyənləşdirilməsi baxımından Beynəlxalq Dəniz Təşkilatına Könüllü Üzv olan Dövlətlərin Audit Mexanizminin əsasını təşkil edən Beynəlxalq Dəniz Təşkilatının Məcburi Sənədlərinin Tətbiqi Məcəlləsini (2011) qəbul etmişdir;

Bütün bayraq dövlətlərinin gəmilərinin beynəlxalq qayda və standartlara cavab verməsi məqsədilə, bayraq dövlətlərinin tərəfdaş olduqları Beynəlxalq Dəniz Təşkilatının konvensiyalarına və digər müvafiq konvensiyalara tam və hərtərəfli qüvvə verməsini təmin edəcək tədbirlərin hazırlanmasına dair Birləşmiş Millətlər Təşkilatının Davamlı İnkişaf Komissiyasının yeddinci sessiyasının müraciətindən XƏBƏRDAR OLARAQ;

NƏZƏRƏ ALARAQ Kİ, müvafiq beynəlxalq konvensiyaların iştirakçıları ratifikasiya prosesi çərçivəsində iştirakçısı olduqları konvensiyalar və digər alətləri üzrə öz məsuliyyətlərini tam şəkildə qəbul etməyi və öhdəliklərini yerinə yetirməyi öhdələrinə götürmüşlər;

Öz bayrağı altında üzmək hüququna malik gəmilər üzərində nəzarəti həyata keçirmək və onların dəniz təhlükəsizliyi, mühafizəsi və dəniz mühitinin qorunması ilə bağlı müvafiq beynəlxalq qayda və tələblərə əməl etməsini təmin etmək üçün adekvat və effektiv sistemə malik olmaqda ilkin məsuliyyətin dövlətlərə aid olduğunu BİR DAHA TƏSDİQ EDƏRƏK;

HƏMÇİNİN BİR DAHA TƏSDİQ EDƏRƏK Kİ, dövlətlər liman və sahil dövləti statusunda dəniz təhlükəsizliyi, mühafizəsi və dəniz mühitinin qorunması baxımından tətbiq olunan beynəlxalq hüquq çərçivəsində digər öhdəlik və məsuliyyətlərə malikdirlər;

Dövlətlər dəniz təhlükəsizliyini, mühafizəsini və gəmilərdən çirklənmənin qarşısının alınmasını təşviq etməyə yönəlmiş alətlərə tərəfdaş olmaqla müəyyən faydalar əldə etsələr də, bu faydaların yalnız bütün tərəflər müvafiq alətlərlə tələb olunan öhdəliklərini icra etdikdə tam reallaşa biləcəyini NƏZƏRƏ ALARAQ;

HƏMÇİNİN NƏZƏRƏ ALARAQ Kİ**,** hər hansı bir sənədin son nəticədə effektivliyi digər amillərlə yanaşı bütün dövlətlərin:

(a) dəniz təhlükəsizliyi, mühafizəsi və çirklənmənin qarşısının alınması və nəzarəti ilə bağlı bütün alətlərin iştirakçısı olmasına;

(b) bu cür alətləri tam və effektiv şəkildə tətbiq və icra etməsinə; və

(c) tələb olunduğu qaydada Təşkilata hesabat verməsinə bağlıdır,

Tərəfdaş olduqları Beynəlxalq Dəniz Təşkilatının məcburi alətlərinə əməl edə bilmələri üçün üzv hökumətlərə potensiallarını və ümumi fəaliyyət göstəricilərini təkmilləşdirməkdə bundan sonra da kömək etməyi ARZUSUNDA OLARAQ;

Bəzi üzv dövlətlərin tərəfdaş olduqları müxtəlif Beynəlxalq Dəniz Təşkilatının məcburi alətlərinin bütün müddəalarına tam əməl etməkdə qarşılaşa biləcəkləri çətinliklərin FƏRQİNDƏ OLARAQ;

Bu cür çətinliklərin mümkün qədər aradan qaldırılması zərurətini nəzərə alaraq və Təşkilatın məhz bu səbəbdən və bu məqsədlə İnteqrasiya Olunmuş Texniki Əməkdaşlıq Proqramını təsis etdiyini YADDA SAXLAYARAQ;

ƏLAVƏ OLARAQ QEYD EDƏRƏK Kİ, Dəniz Təhlükəsizliyi Komitəsi və Dəniz Mühitinin Mühafizəsi Komitəsi 1974-cü il Dənizdə İnsan Həyatının Mühafizəsinə dair Beynəlxalq Konvensiyaya, 1966-cı il Yük Markası haqqında Beynəlxalq Konvensiyaya aid 1988-ci il Protokoluna, 1978-ci il Protokolu ilə dəyişdirilmiş 1973-cü il Gəmilərdən Çirklənmənin Qarşısının Alınmasına dair Beynəlxalq Konvensiyaya və həmin Konvensiyaya dəyişikliklər edilməsi haqqında 1997-ci il Protokoluna, habelə 1978-ci il Dənizçilərin Hazırlanması, Sertifikatlaşdırılması və Növbə Çəkməsi Standartları haqqında Beynəlxalq Konvensiyaya Tərəf olan Hökumətlər tərəfindən qəbul edilmək üçün 1-ci sərəncamverici bənddə qeyd olunan Məcəllənin istifadəsini məcburi edəcək tələbləri işləyib hazırlamışdır;

HƏMÇİNİN XATIRLADARAQ Kİ, 1966-cı il Yük Xətləri haqqında Beynəlxalq Konvensiyanın, 1969-cu il Gəmilərin Tonajının Ölçülməsi haqqında Beynəlxalq Konvensiyanın və 1972-ci il Dənizdə Toqquşmaların Qarşısının Alınmasına dair Beynəlxalq Qaydalar haqqında Konvensiyanın iştirakçısı olan dövlətlər tərəfindən qəbul edilmək üçün tələbləri nəzərdən keçirmişdir ki, bu tələblər də 1-ci sərəncamverici bənddə istinad edilən Məcəllənin istifadəsini məcburi edəcəkdir;

Dəniz Mühitinin Mühafizəsi Komitəsinin 64-cü sessiyasında və Dəniz Təhlükəsizliyi Komitəsinin 91-ci sessiyasında irəli sürülmüş tövsiyələri, NƏZƏRDƏN KEÇİRƏRƏK;

1. Hazırkı qətnamənin əlavəsində təsbit edilmiş **Beynəlxalq Dəniz Təşkilatının Məcburi Alətlərinin icrası haqqında** məcəlləni (III Məcəllə) QƏBUL EDİR;
2. Dəniz Təhlükəsizliyi Komitəsindən və Dəniz Mühitinin Mühafizəsi Komitəsindən Məcəlləni mütəmadi olaraq nəzərdən keçirməyi və Şura ilə koordinasiyalı şəkildə ona dəyişikliklər edilməsi ilə bağlı təklifləri Assambleyaya təqdim etməyi TƏLƏB EDİR;
3. Beynəlxalq Dəniz Təşkilatının məcburi alətlərinin Tətbiqi Məcəlləsinə (2011) dair A.1054(27) saylı qətnaməni LƏĞV EDİR.

-ƏLAVƏ-

Beynəlxalq Dəniz Təşkilatının Məcburi Alətlərinin icrası haqqında məcəllə (III Məcəllə)

MÜNDƏRİCAT

HİSSƏ 1- ÜMUMİ SAHƏLƏR

- Məqsəd
- Strategiya
- Ümumi müddəalar
- Əhatə dairəsi
- İlkin tədbirlər
- Məlumatların ötürülməsi
- Qeydlər
- Təkmilləşdirmə

HISSƏ 2- BAYRAQ DÖVLƏTLƏRİ

- Tətbiqetmə
- Səlahiyyətlərin ötürülməsi
- İcraetmə
- Bayraq dövlətinin müfəttişləri
- Bayraq dövlətinin təhqiqatları
- Qiymətləndirmə və nəzərdən keçirmə

HİSSƏ 3- SAHİL DÖVLƏTLƏRİ

- Tətbiqetmə
- İcraetmə
- Qiymətləndirmə və nəzərdən keçirmə

HİSSƏ 4 – LİMAN DÖVLƏTLƏRİ

- Tətbiqetmə
- İcraetmə
- Qiymətləndirmə və nəzərdən keçirmə

HİSSƏ 1- ÜMUMİ SAHƏLƏR

MƏQSƏD

1. Bu Məcəllənin məqsədi qlobal dəniz təhlükəsizliyini və dəniz mühitinin mühafizəsini gücləndirmək, habelə Təşkilatın məcburi alətlərinin icra edilməsində Dövlətlərə yardım göstərməkdir.

2. Müxtəlif Dövlətlər bu Məcəlləyə öz şərtlərinə uyğun baxacaq və yalnız Razılığa gələn Hökumət və ya Tərəf olduqları məcburi alətlərin tətbiqi ilə bağlı öhdəlik daşımalıdırlar. Coğrafiya və şəraitə görə bəzi Dövlətlər liman və ya sahil dövləti olmaqdan daha çox bayraq dövləti rolunu oynaya bilər, digərləri isə bayraq dövlətindən daha çox sahil və ya liman dövləti roluna malik ola bilər.

STRATEGİYA

3. Bu Məcəllənin məqsədinə çatmaq üçün Dövlətə aşağıdakılar tövsiyə olunur:

1. Bayraq, liman və sahil dövləti kimi beynəlxalq öhdəlik və məsuliyyətlərinin yerinə yetirilməsini təmin edən ümumi strategiya hazırlamaq;
2. Strategiyanın müvafiq beynəlxalq məcburi alətlərin effektiv tətbiqini və icrasını təmin etdiyini izləmək və qiymətləndirmək üçün metodologiya müəyyən etmək; və
3. Bayraq, liman və sahil dövləti kimi ümumi təşkilati fəaliyyətə və potensiala nail olmaq, onu saxlamaq və təkmilləşdirmək üçün strategiyanı mütəmadi şəkildə nəzərdən keçirmək.

ÜMUMİ MÜDDƏALAR

4. Müqavilələr hüququnun və Beynəlxalq Dəniz Təşkilatı konvensiyalarının ümumi müddəalarına əsasən, dənizdə insan həyatının təhlükəsizliyini və dəniz mühitinin mühafizəsini təmin etmək məqsədilə dövlətlər qanun və qaydaların qəbul edilməsinə və bu məcburi alətlərə tam qüvvə vermək üçün zəruri ola biləcək bütün digər tədbirlərin görülməsinə cavabdeh olmalıdırlar.

5. Dəniz mühitinin çirklənməsinin qarşısını almaq, azaltmaq və ona nəzarət etmək üçün tədbirlər görərkən, dövlətlər zərəri və ya təhlükələri birbaşa və ya dolayısı ilə bir ərazidən digərinə köçürməmək, yaxud bir növ çirklənməni digərinə çevirməmək üçün fəaliyyət göstərməlidirlər.

ƏHATƏ DAİRƏSİ

6. Məcəllənin məqsədi iştirakçısı olduğu müvafiq beynəlxalq alətlərin müddəalarına tam və hərtərəfli hüquqi qüvvə verilməsi üçün iştirakçı dövlətin və ya tərəfin aşağıdakı məsələlərə aid zəruri tədbirləri həyata keçirməsini təmin etməkdir:

1. dənizdə insan həyatının təhlükəsizliyi;
2. gəmilərdən çirklənmənin qarşısının alınması;
3. dənizçilərin hazırlanması, sertifikatlaşdırılması və növbə çəkmə standartları;
4. yük xətləri;
5. gəmilərin tonnajının ölçülməsi;
6. dənizdə toqquşmaların qarşısının alınmasına dair qaydalar.

7. Dövlət tərəfindən həmin öhdəliklərin və məsuliyyətlərin həyata keçirilməsi və icrasının təmin edilməsi məqsədilə siyasətin, qanunvericiliyin, müvafiq qayda və normativ aktların, habelə inzibati prosedurların hazırlanması zamanı aşağıdakı sahələr nəzərə alınmalı və müvafiq tədbirlər görülməlidir:

1. yurisdiksiya;
2. təşkilati struktur və səlahiyyətlər;
3. qanunvericilik, qaydalar və normativ aktlar;
4. tətbiq olunan məcburi beynəlxalq alətlərin, qaydaların və normativ aktların elan edilməsi;
5. icranın təmin edilməsi mexanizmləri;
6. nəzarət, müayinə, yoxlama, audit, verifikasiya, təsdiq və şəhadətnamənin verilməsi funksiyaları;
7. müvafiq hallarda tanınmış təşkilatların və təyin edilmiş müfəttişlərin seçilməsi, tanınması, səlahiyyətləndirilməsi, müvafiq səlahiyyətlərlə təmin edilməsi və fəaliyyətlərinə nəzarət;
8. Təşkilata hesabat verilməsi tələb olunan araşdırmalar;
9. Təşkilata və digər administrasiyalara hesabat verilməsi.

İLKİN TƏDBİRLƏR

8. Təşkilatın yeni və ya dəyişdirilmiş sənədi Dövlət üçün qüvvəyə mindikdə, həmin Dövlətin Hökuməti müvafiq milli qanunvericilik vasitəsilə onun müddəalarını həyata keçirmək və icra etmək, zəruri tətbiq və icra infrastrukturunu təmin etmək imkanında olmalıdır. Bu o deməkdir ki, Dövlətin Hökuməti aşağıdakılara malik olmalıdır:

1. Öz bayrağı altında üzən gəmilər üzərində inzibati, texniki və sosial məsələlərdə effektiv yurisdiksiya və nəzarətə imkan verən qanunlar qəbul etmək bacarığı; xüsusilə reyestrlər, gəmilərin yoxlanılması, belə gəmilərə şamil olunan təhlükəsizlik və çirklənmənin qarşısının alınması qanunları və müvafiq qaydaların qəbul edilməsi üçün ümumi tələblərin hüquqi əsasını təmin etmək;
2. Əlaqədar təhqiqat və cəza prosesləri daxil olmaqla, öz milli qanunlarının və qaydalarının məcburi icrası üçün hüquqi əsas; və
3. Zəruri milli qanunların qəbul edilməsinə kömək etmək və Dövlətin bütün vəzifələrini, o cümlədən müvafiq konvensiyaların tələb etdiyi hesabatların verilməsini yerinə yetirmək üçün dənizçilik sahəsində təcrübəyə malik kifayət qədər kadr heyəti.

MƏLUMATLARIN ÖTÜRÜLMƏSİ

9. Dövlət 3-cü bənddə qeyd olunan strategiyasını, o cümlədən milli qanunvericiliyi haqqında məlumatları bütün aidiyyəti şəxslərə çatdırmalıdır.

QEYDLƏR

10. Tələblərə uyğunluğun və Dövlətin effektiv fəaliyyət göstərməsinin sübutunu təmin etmək üçün müvafiq qaydada qeydlər yaradılmalı və saxlanılmalıdır. Qeydlər oxunaqlı, asanlıqla müəyyən edilə bilən və tapılıb əldə olunan qalmalıdır. Qeydlərin müəyyənləşdirilməsi, saxlanması, mühafizəsi, əldə edilməsi, saxlanma müddəti və ləğv edilməsi üçün tələb olunan nəzarət tədbirlərini müəyyən edən sənədləşdirilmiş prosedur təsis edilməlidir.

TƏKMİLLƏŞDİRMƏ

11. Dövlətlər qəbul etdikləri konvensiya və protokollara qüvvə vermək üçün görülən tədbirlərin adekvatlığını (yetərliliyini) daim təkmilləşdirməlidirlər. Təkmilləşdirmə milli qanunvericiliyin zərurətə uyğun olaraq sərt və effektiv tətbiqi və məcburi icrası, eləcə də uyğunluğun monitorinqi vasitəsilə həyata keçirilməlidir.

12. Dövlət dəniz təhlükəsizliyi və ətraf mühitin mühafizəsi fəaliyyətində səmərəliliyin artırılması üçün imkanlar yaradan bir mədəniyyəti təşviq etməlidir ki, buraya digər məsələlərlə yanaşı aşağıdakılar daxil ola bilər:

1. Təhlükəsizlik və çirklənmənin qarşısının alınması ilə bağlı davamlı təlim proqramları;
2. Dənizçiliklə bağlı milli, regional və beynəlxalq təşkilatların, şirkətlərin və dənizçilərin geniş spektrini cəlb edən, təhlükəsizlik və çirklənmənin qarşısının alınması üzrə regional və milli təlim-məşqlər; və
3. Təhlükəsizliyin və çirklənmənin qarşısının alınmasının yaxşılaşdırılması ilə bağlı gəmiçilik şirkətləri və dənizçilər üçün mükafatlandırma və təşviq mexanizmlərindən istifadə edilməsi.

13. Bundan əlavə, Dövlət uyğunsuzluqların təkrarlanmasının qarşısını almaq məqsədilə onların səbəblərini müəyyən etmək və aradan qaldırmaq üçün tədbirlər görməlidir, o cümlədən:

4. Uyğunsuzluqların nəzərdən keçirilməsi və təhlili;
5. Zəruri düzəldici tədbirlərin həyata keçirilməsi; və
6. Görülmüş düzəldici tədbirlərin nəzərdən keçirilməsi.

14. Dövlət potensial uyğunsuzluqların baş verməsinin (yaranmasının) qarşısını almaq məqsədilə onların səbəblərini aradan qaldırmaq üçün zəruri olan tədbirləri müəyyən etməlidir.

HİSSƏ 2- BAYRAQ DÖVLƏTLƏRİ

TƏTBİQETMƏ

15. Öz məsuliyyət və öhdəliklərini effektiv şəkildə icra etmək üçün bayraq dövlətləri:

7. Tərəf olduqları bütün təhlükəsizlik və çirklənmənin qarşısının alınması konvensiyaları və protokollarının tələblərinin tətbiqinə və məcburi icrasına kömək edəcək milli qanunvericilik və rəhbər təlimatlar qəbul etməklə siyasətləri həyata keçirməli; və
8. Qəbul edilmiş müvafiq siyasətləri zərurət olduqda yeniləmək və yenidən baxmaq üçün öz Administrasiyaları daxilində vəzifə və məsuliyyət bölgüsü aparmalıdırlar.

16. Bayraq dövləti təhlükəsizlik və ətraf mühitin mühafizəsi proqramını idarə etmək iqtidarında olan resurslar və proseslər yaratmalıdır ki, bu proqram minimum olaraq aşağıdakılardan ibarət olmalıdır:

1. Tətbiq edilən beynəlxalq qaydaları və standartları həyata keçirmək üçün inzibati təlimatlar, habelə zəruri ola biləcək hər hansı təfsiri (izahlı) milli qaydaların işlənib

hazırlanması və yayılması; o cümlədən bayraq dövlətinin tərəfdaş olduğu beynəlxalq konvensiyanın konstruksiya, mexaniki, elektrik və/və ya digər tələblərinə, yaxud bayraq dövlətinin milli qaydalarının tələblərinə uyğunluğu sübut etmək üçün tələb olunan və Dənizdə İnsan Həyatının Mühafizəsinə dair Beynəlxalq Konvensiyanın (SOLAS) XI-1/1-in müddəalarına uyğun olaraq bayraq dövləti tərəfindən tanınmış təsnifat cəmiyyəti tərəfindən verilən sertifikatlar;

2. Tələb olunan şəhadətnamələri və müvafiq sənədləri verən hər hansı inzibati orqandan və/və ya tələb olunan şəhadətnamələri və müvafiq sənədləri vermək üçün Dövlət tərəfindən səlahiyyət həvalə edilmiş hər hansı qurumdan asılı olmayan audit və yoxlama proqramından istifadə etməklə, tətbiq edilən beynəlxalq alətlərin tələblərinə uyğunluq;
3. Dənizçilərin hazırlanması, sertifikatlaşdırılması və növbə çəkməsinə dair beynəlxalq standartlarla bağlı tələblərə uyğunluq. Buraya digər məsələlərlə yanaşı aşağıdakılar daxildir:

    1. Dənizçilərin hazırlanması, sərişтələrinin qiymətləndirilməsi və sertifikatlaşdırılması;
    2. Müvafiq terminologiyadan, eləcə də gəmiyə verilmiş təhlükəsiz heyətlə komplektləşdirmə sənədindəki terminlərlə tam eyni olan anlayışlardan istifadə etməklə dənizçilərin sərişтəsini dəqiq əks etdirən şəhadətnamələr və təsdiqnamələr;
    3. Dövlət tərəfindən verilmiş şəhadətnamələr və ya təsdiqnamələrin sahibləri tərəfindən dənizdə insan həyatına, əmlaka və ya dəniz mühitinə birbaşa təhlükə törədə biləcək hərəkət və ya hərəkətsizliklə bağlı daxil olmuş hər hansı çatışmazlıq/xəta məlumatları üzrə qərəzsiz araşdırmanın aparılması;
    4. Əsaslı olduqda və saxtakarlığın qarşısını almaq üçün zəruri sayıldıqda, Dövlət tərəfindən verilmiş şəhadətnamələrin və ya təsdiqnamələrin geri çağırılması, dayandırılması və ya ləğv edilməsi üçün mexanizmlər; və
    5. Başqa bir Dövlətin nəzarəti altında həyata keçirilən təlim, qiymətləndirmə və şəhadətnamənin verilməsi fəaliyyətlərini ehtiva edən inzibati tənzimləmələr; bu şərtlə ki, bayraq dövləti öz bayrağı altında üzmək hüququna malik gəmilərdə xidmət edən kapitanların, komandir heyətinin və digər dənizçilərin sərişтəsinin təmin edilməsinə görə məsuliyyəti öz üzərinə götürsün;

4. Qəzaların araşdırılmasının aparılması və çatışmazlıqları aşkar edilmiş gəmilərlə bağlı halların adekvat və vaxtında həll edilməsi; və
5. Müvafiq beynəlxalq alətlərdə təsbit edilmiş və Administrasiyanın qənaətbəxş hesab etməsinə aid olan tələblərə dair təlimatların işlənib hazırlanması, sənədləşdirilməsi və təmin edilməsi.

17. Bayraq dövləti, Təşkilat tərəfindən qəbul edilmiş Təhlükəsiz Heyətlə Komplektləşdirmə Prinsipləri kimi müvafiq və mövcud tədbirləri nəzərə alaraq, öz bayrağı altında üzmək hüququ olan gəmilərin kifayət qədər və səmərəli heyətlə təmin olunmasını təmin etməlidir.

SƏLAHİYYƏTLƏRİN ÖTÜRÜLMƏSİ

18. Yalnız öz bayrağı altında üzmək hüququ olan gəmilərə münasibətdə, Təşkilatın konvensiyaları və ya öz milli qanunvericiliyi çərçivəsində tələb olunan sorğuların, baxışların və auditlərin aparılması, şəhadətnamələrin və sənədlərin verilməsi, gəmilərin nişanlanması və digər məcburi işlərin görülməsi üçün tanınmış təşkilatı öz adından fəaliyyət göstərməyə səlahiyyətləndirən bayraq dövləti bu cür səlahiyyətləndirmə(lər)ni beynəlxalq məcburi sənədlərin tətbiq edilən tələblərinə uyğun olaraq aşağıdakı məqsədlərlə tənzimləməlidir:

1. Administrasiya adından fəaliyyət göstərən tanınmış təşkilatlar üçün Təşkilatın müvafiq alətlərində təsbit edilmiş tələb olunan standartlara uyğun şəkildə, həvalə edilən vəzifələri icra etmək üçün tanınmış təşkilatın texniki, idarəetmə və tədqiqat imkanları baxımından adekvat resurslara malik olduğunu müəyyən etmək;
2. Ən azı Təşkilatın müvafiq alətlərində qeyd olunan elementləri özündə ehtiva edən Administrasiya ilə tanınmış təşkilat arasındakı rəsmi yazılı sazişi və ya ekvivalent hüquqi tənzimləmələri əsas götürmək, hansı ki, bu saziş Administrasiya adından çıxış edən tanınmış təşkilatların səlahiyyətləndirilməsinə dair nümunəvi model sazişə əsaslana bilər;
3. Gəminin gəmi və ya bortdakı şəxslər üçün təhlükə olmadan dənizə çıxmağa yararsız olduğu və ya dəniz mühitinə əsassız zərər təhlükəsi törətdiyi aşkar edildiyi təqdirdə əməl edilməli olan hərəkətləri təfərrüatı ilə əks etdirən xüsusi təlimatlar vermək;
4. Konvensiyaların müddəalarına qüvvə verən milli qanunvericiliyin bütün müvafiq aktlarını və onların təfsirini tanınmış təşkilata təqdim etmək, habelə yalnız öz bayrağı altında üzmək hüququna malik gəmilərə tətbiq olunmaq üçün Administrasiyanın hər hansı əlavə standartlarının konvensiya tələblərini hər hansı baxımdan üstələyib-üstələmədiyini dəqiqləşdirmək; və
5. Tətbiq edilən beynəlxalq alətlərdə olan tələblərin təfsirində Administrasiyaya kömək edəcək məlumatları təmin etmək məqsədilə tanınmış təşkilatın qeydləri aparmasını tələb etmək.

19. Heç bir bayraq dövləti tanınmış təşkilatlarına, konvensiya tələblərindən və Təşkilatın məcburi alətlərindən kənar olan təsnifat qaydalarına, tələblərinə, prosedurlarına və ya digər məcburi şəhadətnamənin verilməsi proseslərinin icrasına aid hər hansı tələbi öz bayrağı altında üzmək hüququ olan gəmilərdən başqa digər gəmilərə tətbiq etməyi həvalə etməməlidir.

20. Bayraq dövləti, beynəlxalq öhdəliklərinin tam yerinə yetirilməsini təmin etmək üçün öz tanınmış təşkilat(lar)ına nəzarət və onlarla əlaqə üzrə adekvat resurslara malik nəzarət

proqramı təsis etməli və ya belə bir proqramda iştirak etməlidir ki, bu da aşağıdakı yollarla həyata keçirilir:

1. Bayraq dövləti, beynəlxalq alətlərin tam yerinə yetirilməsini təmin etmək üçün öz tanınmış təşkilat(lar)ına nəzarət və onlarla əlaqə üzrə adekvat resurslara malik nəzarət proqramı təsis etməli və ya belə bir proqramda iştirak etməlidir ki, bu da aşağıdakı yollarla həyata keçirilir:
2. Öz bayrağı altında üzmək hüququ olan gəmilərin beynəlxalq məcburi tələbləri tamamlayan milli tələblərə uyğunluğunu təmin etmək üçün zəruri hesab etdiyi əlavə sorğuları keçirməklə; və
3. Həm bayraq dövlətinin qayda və təlimatlarını, həm də tanınmış təşkilatların qayda və təlimatlarını yaxşı bilən və tanınmış təşkilatlara effektiv nəzarəti həyata keçirməyə hazır olan kadr heyətini təmin etməklə

21. Öz adından sorğuların, auditlərin və yoxlamaların aparılması məqsədilə müfəttiş(lər) təyin edən bayraq dövləti bu cür təyinatları 18-ci bənddə, xüsusilə .3 və .4-cü yarımbəndlərində verilmiş rəhbər göstərişlərə uyğun olaraq, zərurətə uyğun şəkildə tənzimləməlidir.

İCRAETMƏ

22. Bayraq dövləti, öz beynəlxalq öhdəliklərinə riayət olunmasını təmin etmək məqsədilə öz bayrağı altında üzmək hüququ olan gəmilər, eləcə də yurisdiksiyası altında olan qurumlar və şəxslər tərəfindən beynəlxalq qayda və standartlara əməl olunmasını təmin etmək üçün bütün zəruri tədbirləri görməlidir. Bu cür tədbirlərə digər məsələlərlə yanaşı aşağıdakılar daxil olmalıdır:

1. Öz bayrağı altında üzmək hüququ olan gəmilər beynəlxalq qayda və standartların tələblərinə uyğun şəkildə dənizə çıxa bilən vəziyyətə gələnə qədər onların dənizə çıxmasını qadağan etmək;
2. Gəminin və onun heyətinin faktiki vəziyyətinin daşıdığı şəhadətnaməyə uyğun olduğunu təsdiqləmək məqsədilə öz bayrağı altında üzmək hüququ olan gəmilərə dövri baxışlar keçirmək;
3. 2-ci alt bənddə qeyd olunan dövri baxış zamanı müfəttişin gəmiyə təyin olunmuş dənizçilərin aşağıdakılarla yaxından tanış olduqlarına əmin olması:

    1. Öz xüsusi vəzifələri; və

    2. Gəmi qurğuları, avadanlıqları, təchizatları və prosedurları;

4. Gəmi heyətinin bütövlükdə fövqəladə vəziyyətlərdə, habelə təhlükəsizlik və ya çirklənmənin qarşısının alınması yaxud azaldılması üçün həyati əhəmiyyət kəsb edən

funksiyaların icrası zamanı fəaliyyətləri effektiv şəkildə əlaqələndirə bilməsini təmin etmək;

5. Öz bayrağı altında üzmək hüququ olan gəmilər tərəfindən beynəlxalq qayda və standartların pozulmasının qarşısını almaq çəkindirmək üçün milli qanun və qaydalarda adekvat ciddilikdə cəzalar nəzərdə tutmaq;

6. Pozuntunun harada baş verməsindən asılı olmayaraq, təhqiqat aparıldıqdan sonra beynəlxalq qayda və standartları pozmuş öz bayrağı altında üzən gəmilərə qarşı məhkəmə/inzibati icraata başlamaq;

7. Öz səlahiyyəti altında şəhadətnamənin verilməsivə ya təsdiqnamə verilmiş şəxslər tərəfindən beynəlxalq qayda və standartların pozulmasının qarşısını almaq üçün milli qanun və qaydalarda adekvat ciddilikdə cəzalar nəzərdə tutmaq; və

8. Pozuntunun harada baş verməsindən asılı olmayaraq, təhqiqat aparıldıqdan sonra beynəlxalq qayda və standartları pozmuş şəhadətnamə və ya təsdiqnamə sahibi olan fərdlərə qarşı məhkəmə inzibati icraata başlamaq.

23. Bayraq dövləti aşağıdakı məqsədlər üçün müvafiq qaydada nəzarət və monitorinq proqramı işləyib hazırlamalı və tətbiq etməlidir:

1. Qəzaların operativ və hərtərəfli araşdırılmasını təmin etmək və zərurət olduqda Təşkilata hesabat vermək;
2. Problemli sahələri müəyyən etmək məqsədilə tendensiyaların təhlilinin aparılmasına imkan verən statistik məlumatların toplanmasını təmin etmək; və
3. Liman və ya sahil dövlətləri tərəfindən bildirilən çatışmazlıqlara və iddia olunan çirklənmə insidentlərinə vaxtında cavab verilməsini təmin etmək.

24. Bundan əlavə, bayraq dövləti:

1. Milli qanunvericilik vasitəsilə tətbiq edilən beynəlxalq alətlərə uyğunluğu təmin etməli;
2. Təhqiqatların və sorğuların aparılması üçün nəzərdə tutulan heyət daxil olmaqla, 15.1-ci alt bənddə qeyd olunan milli qanunvericiliyin tətbiqi və məcburi icrası üçün müvafiq sayda ixtisaslı heyət təmin etməli;
3. Öz bayrağı altında üzmək hüququ olan gəmilərin liman dövlətləri tərəfindən saxlanıldığı hadisələri araşdırmaq üçün kifayət sayda ixtisaslı bayraq dövləti heyəti təmin etməli;
4. Öz səlahiyyəti altında verilmiş şəhadətnamənin və ya təsdiqnamənin etibarlılığı, yaxud bu şəhadətnamə və ya təsdiqnamələrə malik şəxslərin sərişləsi liman dövlətləri

tərəfindən şübhə altına alındığı halları araşdırmaq üçün kifayət sayda ixtisaslı bayraq dövləti heyəti təmin etməli; və
5. Bayraq dövlətinin müfəttişlərinin və təhqiqatçılarını fəaliyyətinə nəzarəti və onların təlimini təmin etməlidir

25. Bayraq dövlətinə öz bayrağı altında üzmək hüququ olan gəminin bir liman dövləti tərəfindən saxlanıldığı barədə məlumat verildikdə, bayraq dövləti sözügedən gəminin tətbiq edilən beynəlxalq alətlərə dərhal uyğun vəziyyətə gətirilməsi üçün müvafiq düzəldici tədbirlərin görülməsinə nəzarət etməlidir.

26. Bayraq dövləti, yalnız şəxsin bütün tətbiq edilən tələblərə cavab verdiyini müəyyən etdikdən sonra həmin şəxsə beynəlxalq sərişte şəhadətnamə və ya təsdiqnamə verməlidir.

27. Bayraq dövləti, yalnız şəxsin bütün tətbiq edilən tələblərə cavab verdiyini müəyyən etdikdən sonra həmin şəxsə beynəlxalq sərişte şəhadətnaməsi və ya təsdiqnamə verməlidir.

BAYRAQ DÖVLƏTİNİN MÜFFƏTİŞLƏRİ

28. Bayraq dövləti təhlükəsizliyə və çirklənmənin qarşısının alınmasına aid olan və ona təsir göstərən işləri idarə edən, icra edən və yoxlayan bütün heyətin vəzifələrini, səlahiyyətlərini və qarşılıqlı əlaqəsini müəyyən etməli və sənədləşdirməlidir.

29. Müvafiq beynəlxalq məcburi alətlərin əhatə dairəsinə daxil olan gəmilər və şirkətlər üzrə sorğuların, yoxlamaların və auditlərin aparılmasına cavabdeh olan və ya bunları həyata keçirən heyət minimum olaraq aşağıdakılara malik olmalıdır:

1. Dənizçilik və ya gəmiçilik təhsili müəssisəsindən müvafiq ixtisasa malik olmaq və qüvvədə olan idarəetmə səviyyəli peşə sərişteşi şəhadətnaməsinə malik olan və ya əvvəllər malik olmuş sertifikatlaşdırılmış gəmi zabiti kimi müvafiq dənizçilik təcrübəsinə sahib olmaq, habelə peşə sərişteşi şəhadətnaməsini əldə etdikdən sonra gəmilər və onların istismarı ilə bağlı texniki biliklərini qoruyub saxlamaq; və ya
2. Müvafiq mühəndislik və ya elm sahəsində bayraq dövləti tərəfindən tanınan ali təhsil müəssisəsinin dərəcəsinə və ya ona ekvivalent ixtisasa sahib olmaq; və ya
3. 29.1, 29.2 və 32-ci bəndlərdə tələb olunan müfəttiş təcrübəsi və sərişteşi ilə eyni standarta gətirib çıxaran rəsmiləşdirilmiş təlim proqramı vasitəsilə sörveyer kimi akkreditasiyadan keçmək.

30. 29.1-ci bəndə əsasən ixtisaslaşmış heyət göyərtə və ya maşın komandasında zabit qismində dənizdə ən azı üç il xidmət etmiş olmalıdır.

31. 29.2-ci bəndə əsasən ixtisaslaşmış heyət ən azı üç il müvafiq sahədə (vəzifədə) fəaliyyət göstərmiş olmalıdır.

32. Bundan əlavə, həmin heyət sənədləşdirilmiş təlim proqramları vasitəsilə əldə edilmiş, bayraq dövlətinin müfəttişi kimi öz vəzifələrini icra etmək üçün zəruri olan gəmilər, onların istismarı, habelə müvafiq milli və beynəlxalq alətlərin müddəaları barədə müvafiq praktiki və nəzəri biliklərə malik olmalıdır.

33. Bu cür işlərin icrasına kömək edən digər heyət yerinə yetirməyə səlahiyyətli olduqları tapşırıqlara mütənasib təhsilə, təlimə və nəzarətə malik olmalıdır.

34. İxtisas sahəsi üzrə əvvəlki müvafiq təcrübənin üstünlük kimi qəbul edilməsi tövsiyə olunur; əvvəlki təcrübə olmadıqda, Administrasiya müvafiq praktiki təlimi təmin etməlidir.

35. Bayraq dövləti heyətin ixtisaslaşdırılması və icra etməyə səlahiyyətli olduqları tapşırıqlara uyğun olaraq biliklərinin davamlı yenilənməsi üçün sənədləşdirilmiş sistem tətbiq etməlidir.

36. İcra ediləcək funksiya(lar)dan asılı olaraq, ixtisas tələbləri aşağıdakıları əhatə etməlidir:

1. Gəmilər, onların şirkətləri, heyəti, yükləri və istismarı üçün tətbiq edilən beynəlxalq və milli qayda və normalar barədə biliklər;
2. Baxış, şəhadətnamənin verilməsi, nəzarət, təhqiqat və müşahidə funksiyalarında tətbiq ediləcək prosedurlar barədə biliklər;
3. Dəniz təhlükəsizliyi və dəniz mühitinin mühafizəsi ilə bağlı beynəlxalq və milli alətlərin məqsəd və vəzifələrini, eləcə də əlaqədar proqramları anlamaq;
4. Həm gəmidə, həm də sahildə baş verən daxili və xarici prosesləri anlamaq;
5. Həvalə edilmiş tapşırıqları effektiv və səmərəli şəkildə icra etmək üçün zəruri olan peşə səriştəsinə sahib olmaq;
6. Bütün hallarda, o cümlədən şəxsi təhlükəsizlik baxımından tam təhlükəsizlik şüuruna malik olmaq; və
7. İcra ediləcək müxtəlif tapşırıqlar üzrə, habelə arzuolunan hal kimi qiymətləndiriləcək funksiyalar üzrə təlimə və ya təcrübəyə malik olmaq.

37. Bayraq dövləti, yoxlayıcının öz vəzifələrini yerinə yetirərkən üzərində gəzdirməsi üçün ona şəxsiyyəti təsdiq edən sənəd verməlidir.

BAYRAQ DÖVLƏTLƏRİNİN TƏHQİQATLARI

38. Dəniz təhlükəsizliyi təhqiqatları qəza ilə bağlı məsələlərdə müvafiq ixtisasa və biliyə malik, qərəzsiz və obyektiv təhqiqatçılar tərəfindən aparılmalıdır. Hansı dövlətin və ya dövlətlərin dəniz təhlükəsizliyi təhqiqatını aparan dövlət(lər) olacağına dair hər hansı razılaşmaya tabe olmaq şərtilə, qəzanın və ya insidentin baş verdiyi yerdən asılı olmayaraq, bayraq dövləti bu məqsəd üçün ixtisaslı müstəntiqləri təmin etməlidir.

39. Bayraq dövlətinə tövsiyə olunur ki, fərdi təhqiqatçıların öz normal vəzifələrinə aid olan sahələr üzrə işçi biliklərə və praktiki təcrübəyə malik olmasını təmin etsin. Bundan əlavə, fərdi təhqiqatçılara öz normal tapşırıqlarından kənar vəzifələri icra etməkdə kömək göstərmək məqsədilə, zərurət olduqda, bayraq dövlətinə aşağıdakı sahələr üzrə ekspert biliklərinə asan çıxışı təmin etmək tövsiyə olunur:

1. Naviqasiya və Dənizdə gəmilərin toqquşmasının qarşısının alınmasına dair Beynəlxalq Qaydalar (COLREG);
2. Peşə səriştəsi şəhadətnaməsi üzrə bayraq dövlətinin qaydaları;
3. Dənizin çirklənməsinin səbəbləri;
4. Müsahibə texnikaları;
5. Sübutların toplanması; və
6. İnsan amilinin təsirlərinin qiymətləndirilməsi.

40. Bayraq dövlətinin gəmilərində baş vermiş, işçinin vəzifəsini icra etmədiyi üç və ya daha çox gün davam edən əmək qabiliyyətinin itirilməsi ilə nəticələnən xəsarətlərlə, habelə istehsalat qəzaları nəticəsində baş vermiş ölüm halları və gəmi qəzaları ilə bağlı hər bir hadisənin araşdırılması və belə araşdırmaların nəticələrinin ictimaiyyətə açıqlanması tövsiyə olunur.

41. Gəmi qəzaları müvafiq beynəlxalq alətlərə uyğun olaraq, Təşkilat tərəfindən işlənib hazırlanmış təlimat və dəyişikliklər nəzərə alınmaqla Qəza Təhqiqatı Məcəlləsinə (Casualty Investigation Code) müvafiq şəkildə araşdırılmalı və hesabatlaşdırılmalıdır. Təhqiqat üzrə hesabat, yuxarıda qeyd olunan rəhbər göstərişlərə uyğun olaraq, bayraq dövlətinin mülahizələri ilə birlikdə Təşkilata göndərilməlidir.

QİYMƏTLƏNDİRMƏ VƏ NƏZƏRDƏN KEÇİRMƏ

42. Bayraq dövləti tərəfdaş olduğu beynəlxalq alətlərlə tələb olunan öhdəliklərini yerinə yetirmək üçün zəruri olan inzibati proseslərin, prosedurların və resursların tətbiqinə münasibətdə öz fəaliyyətini dövri əsasda qiymətləndirməlidir.

43. Bayraq dövlətlərinin fəaliyyətinin qiymətləndirilməsi üçün nəzərdə tutulan tədbirlərə, digər məsələlərlə yanaşı, liman dövləti nəzarəti çərçivəsində gəmilərin saxlanılması göstəriciləri, bayraq dövləti tərəfindən aparılan yoxlamaların nəticələri, qəza statistikası, kommunikasiya və məlumat mübadiləsi prosesləri, illik itki statistikası, habelə müvafiq hesab edilə biləcək digər fəaliyyət göstəriciləri daxil edilməlidir. Bu göstəricilər bayraq dövlətinin üzərinə düşən öhdəlikləri yerinə yetirmək üçün kadr təminatının, resursların və inzibati prosedurların kifayət edib-etmədiyini müəyyən etmək məqsədi daşıyır.

44. Müntəzəm nəzərdən keçirilməsi tövsiyə olunan sahələrə digər məsələlərlə yanaşı, aşağıdakılar daxil ola bilər:

1. Seçilmiş dövrlər üzrə meyilləri müəyyən etmək məqsədilə donanmanın itki və qəza əmsalları;
2. Donanmanın ölçüsünə nisbətdə saxlanılmış (tutulmuş) gəmilərin təsdiq olunmuş hallarının sayı;
3. Bayraq dövlətinin səlahiyyəti altında verilmiş şəhadətnamə və ya təsdiqnamələrə malik şəxslər tərəfindən yol verilmiş sərişləsizliyin və ya qanunsuz hərəkətlərin təsdiq olunmuş hallarının sayı;
4. Liman dövlətinin çatışmazlıq hesabatlarına və ya müdaxilələrinə verilən cavablar;
5. Çox ciddi və ciddi qəzaların araşdırılması və onlardan çıxarılan dərslər;
6. Ayrılmış texniki və digər resurslar;
7. Donanmadakı gəmilərə keçirilmiş yoxlamaların, baxışların və nəzarət tədbirlərinin nəticələri;
8. İstehsalat qəzalarının araşdırılması;
9. Dənizin çirklənməsinin qarşısının alınmasına dair tətbiq edilən beynəlxalq qaydalar çərçivəsində baş verən insidentlərin və pozuntuların sayı; və
10. Sertifikatların, təsdiqnamələrin, şəhadətnamələrin və ya analoji sənədlərin dayandırılması və ya ləğv edilməsi hallarının sayı.

HİSSƏ 3- SAHİL DÖVLƏTLƏRİ

TƏTBİQETMƏ

45. Sahil dövlətləri müxtəlif beynəlxalq alətlər çərçivəsində müəyyən hüquq və öhdəliklərə malikdirlər. Sahil dövlətləri həmin alətlər üzrə öz hüquqlarından istifadə edərkən əlavə öhdəliklər daşıyırlar.

46. Öz öhdəliklərini effektiv şəkildə yerinə yetirmək üçün sahil dövləti:

1. Tərəfdaş olduğu bütün təhlükəsizlik və çirklənmənin qarşısının alınması konvensiyaları və protokollarının tələblərinin tətbiqinə və məcburi icrasına kömək edəcək milli qanunvericilik və rəhbər təlimatlar qəbul etməklə siyasətləri həyata keçirməli; və
2. Qəbul edilmiş hər hansı müvafiq siyasətin zərurət olduqda yenilənməsi və yenidən baxılması üzrə məsuliyyətlər müəyyən etməlidir.

47. Sahil dövləti tərəfdaş olduğu müvafiq beynəlxalq alətlərdə təsbit olunmuş hüquqlarının, öhdəliklərinin və məsuliyyətlərinin ardıcıl icrası və yoxlanılması üçün qanunvericiliyinin, rəhbər təlimatlarının və prosedurlarının formalaşdırılmasını təmin etməlidir.

48. Həmin hüquqlar, öhdəliklər və məsuliyyətlərə digər məsələlərlə yanaşı, aşağıdakılar daxil ola bilər:

1. Radiorabitə xidmətləri;
2. Meteoroloji xidmətlər və xəbərdarlıqlar;
3. Axtarış və xilasetmə xidmətləri;
4. Hidroqrafik xidmətlər;
5. Gəmilərin hərəkət marşrutları;
6. Gəmilərin hesabat sistemləri;
7. Gəmilərin hərəkətini idarəetmə xidmətləri; və
8. Naviqasiya vasitələri

İCRAETMƏ

49. Sahil dövlətləri öz hüquqlarından istifadə edərkən və öhdəliklərini yerinə yetirərkən beynəlxalq qaydalara riayət olunmasını təmin etmək üçün bütün zəruri tədbirləri görməlidirlər.

50. Sahil dövləti aşağıdakı məqsədlər üçün məqsədəuyğun qaydada nəzarət və monitorinq proqramını nəzərdən keçirməli, işləyib hazırlamalı və tətbiq etməlidir:

1. Problem sahələrini müəyyən etmək üçün tendensiya təhlillərinin aparılmasına imkan verən statistik məlumatların bölüşdürülməsini təmin etmək;
2. Öz sularında baş verən çirklənmə insidentlərinə vaxtında reaksiya verilməsi mexanizmlərini yaratmaq; və
3. Dəniz qəzalarının araşdırılmasında müvafiq hallarda bayraq dövlətləri və/və ya liman dövlətləri ilə əməkdaşlıq etmək.

QİYMƏTLƏNDİRMƏ VƏ YENİDƏN BAXILMA

51. Sahil dövləti tətbiq edilən beynəlxalq alətlər üzrə öz hüquqlarından istifadə edilməsinə və öhdəliklərinin yerinə yetirilməsinə münasibətdə öz fəaliyyətini dövri olaraq qiymətləndirməlidir.

HİSSƏ 4- LİMAN DÖVLƏTLƏRİ

TƏTBİQETMƏ

52. Liman dövlətləri müxtəlif beynəlxalq alətlər çərçivəsində müəyyən hüquq və öhdəliklərə malikdirlər. Liman dövlətləri həmin alətlər üzrə öz hüquqlarından istifadə edərkən əlavə öhdəliklər daşıyırlar.

53. Liman dövlətləri dəniz təhlükəsizliyinin təmin edilməsində və ətraf mühitin mühafizəsində, o cümlədən çirklənmənin qarşısının alınmasında mühüm rol oynaya bilərlər. Dəniz təhlükəsizliyi və ətraf mühitin mühafizəsi ilə bağlı liman dövlətinin rolu və məsuliyyətləri beynəlxalq müqavilələrin, konvensiyaların və milli qanunvericiliyin, habelə bəzi hallarda ikitərəfli və çoxtərəfli sazişlərin məcmusundan irəli gəlir.

54. Öz öhdəliklərini effektiv şəkildə yerinə yetirmək üçün liman dövləti:

1. Tərəfdaş olduğu bütün təhlükəsizlik və çirklənmənin qarşısının alınması konvensiyaları və protokollarının tələblərinin tətbiqinə və məcburi icrasına kömək edəcək milli qanunvericilik və rəhbər təlimatlar qəbul etməklə siyasətləri həyata keçirməli; və
2. Qəbul edilmiş hər hansı müvafiq siyasətin zərurət olduqda yenilənməsi və yenidən baxılması üzrə məsuliyyətlər müəyyən etməlidir.

55. Liman dövləti tərəfdaş olduğu müvafiq beynəlxalq alətlərdə təsbit olunmuş hüquqlarının, öhdəliklərinin və məsuliyyətlərinin ardıcıl icrası və yoxlanılması üçün qanunvericiliyinin, rəhbər təlimatlarının və prosedurlarının formalaşdırılmasını təmin etməlidir.

56. Həmin hüquqlar, öhdəliklər və məsuliyyətlərə digər məsələlərlə yanaşı, aşağıdakılar daxil ola bilər:

1. Təşkilatın alətləri ilə tənzimlənən bütün tullantı axınlarını qəbul etmək üçün müvafiq qəbul qurğularının və ya imkanların təmin edilməsi;
2. Liman dövləti nəzarəti; və
3. Yanacaq (bunker) təchizatçılarının reyestrinin aparılması.

İCRAETMƏ

57. Liman dövlətləri öz hüquqlarından istifadə edərkən və öhdəliklərini yerinə yetirərkən beynəlxalq qaydalara riayət olunmasını təmin etmək üçün bütün zəruri tədbirləri görməlidirlər.

58. Təhlükəsizlik və dənizin çirklənməsinin qarşısının alınmasına dair bir sıra beynəlxalq dənizçilik alətləri liman dövləti nəzarətinə icazə verən xüsusi müddəalar ehtiva edir.

59. Həmçinin, bu alətlərin bir qismi liman dövlətlərinə həmin konvensiyaların iştirakçısı olmayan tərəflərə konvensiya iştirakçısı olan tərəflərdən daha əlverişli şərait yaratmamaq öhdəliyi qoyur.

Bu o deməkdir ki, liman dövlətləri sözügedən alətlərin şərtlərini iştirakçı dövlətlərlə yanaşı, iştirakçı olmayan dövlətlərə də şamil etməlidir.

60. Liman dövləti nəzarətini həyata keçirmək hüququndan istifadə edərkən, liman dövləti Təşkilat tərəfindən qəbul edilmiş müvafiq qətnaməyə uyğun olaraq liman dövləti nəzarəti proqramını idarə etmək üçün proseslər müəyyən etməlidir.

61. Liman dövləti nəzarəti yalnız səlahiyyət verilmiş və ixtisaslı liman dövləti nəzarəti müfəttişləri tərəfindən, Təşkilat tərəfindən qəbul edilmiş müvafiq prosedurlara uyğun olaraq həyata keçirilməlidir.

62. Liman dövləti nəzarəti müfəttişləri və onlara kömək edən şəxslər hər hansı kommersiya, maliyyə və digər təzyiqlərdən azad olmalı, nə yoxlamanın aparıldığı limanda, nə yoxlanılan gəmilərdə, nə gəmi təmiri müəssisələrində, nə də limanda və ya başqa yerdə yerləşən hər hansı təminat-dəstək xidmətlərində heç bir kommersiya marağına malik olmamalıdırlar; habelə liman dövləti nəzarəti müfəttişləri tanınmış təşkilatlar (RO) və ya təsnifat cəmiyyətləri tərəfindən işə cəlb edilməməli və ya onların adından hər hansı iş görməməlidirlər. Liman dövlətindən kənar şəxslərin və ya təşkilatların həyata keçirilən liman dövləti yoxlamasının və nəzarətinin nəticələrinə təsir göstərə bilməməsini təmin etmək üçün əlavə prosedurlar tətbiq edilməlidir.

QİYMƏTLƏNDİRMƏ VƏ NƏZƏRDƏN KEÇİRMƏ

63. Liman dövləti Təşkilatın tətbiq edilən alətləri üzrə öz hüquqlarından istifadə edilməsinə və öhdəliklərinin yerinə yetirilməsinə münasibətdə öz fəaliyyətini (fəaliyyətinin səmərəliliyini) dövri olaraq qiymətləndirməlidir.